

Kəmaləddin Qədim

### NƏDƏN YETİŞMƏZ Kİ DUAM TANRIYA...

Nə boş-boş xəyallar qurram içimdə,
Nə qızıl balıqlar toruma düşməz.
Yuxular görərəm eh, nə biçimdə,
Biri də yozuma, yoruma düşməz.

Yaşadım od üstdə, köz üstdə, bəlli,
Şükr ki, gəlmədim diz üstdə, bəlli.
Qalxıb öldürsələr söz üstdə, bəlli
Peşəmə cangüdən, qoruma düşməz.

Götürüb aparmaz küləyi bir gün
Yalanı, yanlışı, kələyi bir gün.
Çevrilib mən olmaz mələyi bir gün,
Bir gün də mən düşən duruma düşməz.

Bu necə gülzarmış, necə çəmənlik,
Olmadı bir gün də bir quşa dənlik.
Nə yeri mənlikdi, nə goru mənlik,
Evimə düşməyən goruma düşməz.

Bir şey ki, köləyəm, qulam Tanrıya,
Ən qısa, ən kəsə yolam Tanrıya.
Nədən yetişməz ki duam Tanrıya,
Ərizəm gərəkən quruma düşməz?..

### GÜLÜM, DUR YOLA SAL, ÖTÜR GECƏNİ...

Baxma ki, mənim ən zülmət yerimdin,
Gəl, yenə özünlə gətir gecəni.
Ən şirin söz yerim, söhbət yerimdin,
Sevmişdim tək sənə xətir gecəni...

Yaman öyrətmişdin özünə belə,
Salmışdın çölünə, düzünə belə.
O nurlu, işıqlı üzünə belə,
Çətir eyləsən də, çətir, gecəni...

Bilərdim ən gözəl yer desəydilər,
Ayağın altına gor desəydilər.
Verərdim gözümü ver, desəydilər
Götür əvəzinə, götür gecəni...

Nədən sevirdim ki, mən axı, nədən
Sənli suçu nədən, günahı nədən?
Hələ də bilmirəm Allahım nədən
Gündüzün üstünə örtür gecəni?..
Gör necə qalmışam, necə, yol üstdə,
Gələsi nə var ki, vecə yol üstdə?

Səhərə az qalıb... gecə yol üstdə...
Gülüm, dur, yola sal, ötür gecəni...

### ÖZÜMÜ GÖZÜMÜN ALTDA TUTURAM...

Az qalıb, azıma çəkirəm ömrü,
Nəyim var azımın altda tuturam.
Nizama, düzümə çəkirəm ömrü,
Nizamın, düzümün altda tuturam.

Bu əyri doğuşdan paşam, əyrimi,
Elə düzəltməkmi peşəm əyrimi?
Beş-on yanlışımı, beş-on əyrimi,
Doğrumun, düzümün altda tuturam.

Düz də ki belədi, düz də görünmür,
Qalır düzlüyündən düzdə, görünmür.
Gözlərə təpilmir, üzdə görünmür,
Dərdi də sözümün altda tuturam.

Suyu bulandıran birsimi başda,
Başdamı bu suyun tilsimi, başda?
Qoymuram çatlasın hirsimi başda,
Qatlayıb dizimin altda tuturam.

Canımın as yeri, usta yeri var,
Üz tutub gedirəm dosta, yeri var.
Çox da ki gözümün üstdə yeri var,
Özümü gözümün altda tuturam...

### DUR AYAĞA, QONAQLARI QARŞILA...

Ölüm haqdı, yüz götür-qoy, yüz çevir,
İçin-için yan, haqları qarşıla...
Soyuq-soyuq dodaqlara üz çevir,
Nəmli-nəmli yanaqları qarşıla...

Yaraşıq ver qamətinə, şəstinə,
Kimdi baxan başdan çıxan tüstünə...
Baxma belə qoşun çəkib üstünə,
Son dərdləri, son ahları qarşıla...

Mən ki elə şeirimnən, sözümnən,
Od qalayıb oynamışam közümnən.
Savabları aparmışam özümnən,
Saxladığım günahları qarşıla...

Gündü, aydı, keçəcək, bil, sevdiyim,
Üçdü, qırxdı, bir də ki, il, sevdiyim.
Gözlərinin yaşını sil, sevdiyim,
Dur ayağa, qonaqları qarşıla...

### GETMƏRƏM O SONA, AXIRA SƏNNƏN

A dünya, səndə bir ömür yaşadım,
Uydum da bir şirin nağıla sənnən.
O qədər xoş gəldi ləzzətin, dadın,
Öyrəşdim nabata, noğula sənnən.

Uçuldum, dağıldım, sonra quruldum,
Erkən bulanmışdım, çox gec duruldum.
Gör səni nətəhər sevdim, vuruldum,
Qoymadım kimsəni yaxına sənnən.

Yoxdurmu bir azca ədəb-ərkanın,
Yanır, dörd tərəfin od tutub yanır...
Ölən ölüb gedir, qurtarır canı,
Qalan qalır yana, yaxıla sənnən...

Ha geyin, ha süslən, bəzən deyirəm,
Sən çalan havaya süzən deyiləm.
Bu qurğu deyilən, düzən deyilən
Qurulub bir gün də dağıla sənnən...

Al bu da mən adlı lalın, sağırın,
Fağırın biriyəm artıq, fağırın.
Cənnət olsa belə sonun, axırın,
Getmərəm o sona, axıra sənnən...

### BAĞIŞLASIN

Gecikdim, bu qapının
Barısı bağışlasın...

Qocası bağışlasın,
Qarısı bağışlasın...

Vaxt əldə zopa tutsun,
Adamlar gopa tutsun.
Yarısı topa tutsun,
Yarısı bağışlasın...

Könlüm tutduğu yası,
Unutmur, unutmasın.
Barı, çörək tutmasın,
Barı, su bağışlasın...

İsbat edim nəyini,
Gerçəyin gerçəyini?
Şirəsiz çiçəyini
Arısı bağışlasın...

Mən tənha, qu tərəfi,
İstək, arzu tərəfi.
Öldürdü bu tərəfi,
Anrısı bağışlasın...

Bir az kor bəndəsidi,
Bir az kar bəndəsidi.
Günahkar bəndəsidi,
Tanrısı bağışlasın...

### GÖYƏ

Paklan, təmizlən, durul,
Sirdaş ol sıx-sıx göyə
Sev də, aşiq ol, vurul,
Bənzə azacıq göyə.

Bu yaxın şaha yaxın
Bahadan baha yaxın,
Saraydan daha yaxın
Bax bu alaçıq göyə.

Ha gözlə ki, dinə tab
Cin atına minə tab.
Çəkilməzə bu nə tab,
Bu necə acıq göyə?

Yapılacaq yapılar,
Çapılacaq çapılar.
Pəncərələr, qapılar
Taybatay açıq göyə...

Ömür naxış, gün naxış
Bu son payız, bu son qış.
Bu da, bu da son yağış
Tut ucundan çıx göyə...

### GÖYNƏMƏKDƏ BİR BAŞ YERİ...

Xoş halına bu ocağın,
Ətrafında bardaş yeri...
Vətən deyib sevdiribdi
Sevdirənlər bu daş yeri...

Mənim də bürcümə düşüb,
Həftədə bir cümə düşüb.
Nə fərqi var kimə düşüb
İpək yeri, qumaş yeri...

Yavaş-yavaş azalmışam,
Gözümdə yaş azalmışam.



Qardaş-qardaş azalmışam,
Boş qalıbdı qardaş yeri...

Pir deyilmiş pir dediyim,
Aşikarmış sirr dediyim.
Neynim, mənim yer dediyim
Nə barış, nə savaş yeri...

Əmr gəlib əmrim üstdən,
Yellər əsib səbrim üstdən.
Yolçu qardaş, qəbrim üstdən
Astaca keç, yavaş yeri...

Sağım cəllad, solum cəllad,
Yox geriyə yolum, cəllad...
Bir kötükdə zalım cəllad,
Göynəməkdə bir baş yeri...

### AXŞAM-AXŞAM

Üzünün işığı düşdü üzümə,
Bu necə işıqdı qız, axşam-axşam?..
Necə görünəcək gör səhər-səhər,
Bu qədər nurlusa üz axşam-axşam...

Ayrıl, ayrılığa əl elə, getsin,
Versin həsrətinlə əl-ələ getsin.
Elə, nazını da bol elə getsin,
Çox gözəl çəkilir naz axşam-axşam...

Görürsən, dilin də şəkər, bal olub,
Unutdum nə boyda qeylü-qal olub.
Ayağım yer tutmur, dilim lal olub,
Deməyə tapmıram söz axşam-axşam...

Tanrının ən böyük, şah əsərisən,
Qoy mənim çiynimə dərdi-səri sən.
Aç da qulac-qulac hörükləri sən,
Düz sinəm üstünə, düz axşam-axşam...

Qal da, qaldığına xatircəm olum,
Toplayım özümü, yığım, cəm olum.
Yenə ayılmayım, yenə dəm olum,
Süz də gözlərini, süz axşam-axşam...

### ZİNDANAM TƏKADAMLIQ

Savaşdayam özümlə,
Meydanam təkadamlıq.
Həm qalibəm, həm də ki
Qurbanam təkadamlıq.

Harda kəsirəm, kəməm,
Harda bütövəm, cəməm...
Bir ellik dərdəm, qəməm,
Dərmanam təkadamlıq.

Könlümün odu köçdü,
Ağzımın dadı köçdü.
Köçümün adı köçdü,
Karvanam təkadamlıq.

Çox da ki düz canımda,
Diridi söz canımda.
Dustağam öz canımda,
Zindanam təkadamlıq...

### SƏNİ GÜLDƏN DAHA GÖZƏL BİLMİŞƏM...

Olub-keçən elə bil ki, dünənmiş,
Keçib üstdən il, ağlıma gəlməyib.
Gecə-gündüz ağlımda sən olmusan,
Başqa kimsə bil, ağlıma gəlməyib...

Yaşamışam bax bu tabda, dözümdə,
Yüz yol küsüb, barışsam da özümlə.
Bal süzülüb şeirimdən, sözümdən,
Şirin-şirin dil ağlıma gəlməyib...

Baxsan həmin öncülmüşəm, önmüşəm,
Hələ sənə tərəfmişəm, yönmüşəm.
Əsli bilib Kərəminə dönmüşəm,
Od ağlıma, kül ağlıma gəlməyib...

Qala-qala özbaşıma bir az da,
Oyun açıb söz başıma bir az da.
Dəm vermişəm göz yaşıma bir az da,
Olar bir gün sel, ağlıma gəlməyib...

Bahaymışsan, baha, gözəl, bilmişəm,
Dönmüsən lap şaha gözəl, bilmişəm.
Səni güldən daha gözəl bilmişəm,
Gətirməyə gül ağlıma gəlməyib...